*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 11 fevral 2021-ci il tarixli, SQ-07/2021-2 saylı qərarı ilə təsdiq edilmişdir.*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə seçki bülletenlərinin, dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının və səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin hazırlanması və müvafiq seçki komissiyalarına verilməsi qaydaları haqqında**

# T Ə L İ M A T

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə seçki bülletenlərinin, dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının və səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin hazırlanması və müvafiq seçki komissiyalarına verilməsi qaydaları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun (bundan sonra – Qanun) 86-cı, 87-ci maddələri ilə və bu Təlimatla tənzimlənir.

## 1. Ümumi müddəalar

1.1. Seçki bülletenləri (bundan sonra – bülletenlər), səsvermə protokolları (bundan sonra – protokollar) və səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələrinin (bundan sonra – səsvermə vəsiqəsi) onların mətni və forması, hazırlanma qaydası və sayı Qanunun 86-cı və 87-ci maddələrində göstərilən qaydalara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) tərəfindən müəyyən edilir. Bülletenlərin,

protokolların və səsvermə vəsiqələrinin nümunələri təsdiq edilərkən Qanunun 86.2-ci, 86.3-cü, 87.2 – 87.5-ci və 87.12.1-ci maddələrinin tələbləri nəzərə alınır.

1.2. Bu Təlimatın 1.1-ci bəndində göstərilən hərəkətləri etdikdən sonra Mərkəzi Seçki Komissiyası bülletenlərin, protokolların və səsvermə vəsiqələrinin hazırlanmasına dair qərar çıxarır.

**1. Bülletenlər, protokollar və səsvermə vəsiqələrinin hazırlanması**

1.1. Bülletenlərin, protokolların və səsvermə vəsiqələrinin hazırlanması üçün Mərkəzi Seçki Komissiyası poliqrafiya müəssisəsinə ayrı-ayrılıqda aşağıdakı sənədləri təqdim edir:

1.1.1. hazırlanmalı olan bülletenlərin (qeydə alınmış seçicilərin sayından 3 faiz artıq olmamaqla), dairə və məntəqə seçki komissiyaları protokollarının, səsvermə vəsiqələrinin sayı barəsində məlumatların əks olunduğu Mərkəzi Seçki Komissiyasının müvafiq qərarına əsasən poliqrafiya müəssisəsinə ünvanlanmış məktubu;

1.1.2. bülletenlərin, protokolların və səsvermə vəsiqələrinin Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş nümunələri.

1.2. Qanunun tələbinə uyğun olaraq bülletenlər və protokollar səsvermə gününə ən azı 10 gün, səsvermə vəsiqələri isə ən azı 35 gün qalmış hazırlanır.

1.3. Bülletenlər, protokollar və səsvermə vəsiqələri Qanunun 86.4-cü, 87.6-cı və 87.12.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla hazırlanır. Bu zaman Mərkəzi Seçki Komissiyası nümayəndələrinin

iştirakı təmin edilməli, hüququ olan subyektlərə bu barədə məlumat verilməlidir.

1.4. Qanunun 87.10-cu maddəsinə müvafiq olaraq poliqrafiya müəssisəsi nömrələnmiş protokollarla birlikdə, hər seçki komissiyasına 10 nüsxə hesabı ilə protokolların nömrələnməmiş surətlərini də hazırlamalıdır.

**2. Bülletenlər, protokollar və səsvermə vəsiqələrinin yararsız hesab edilmişləri çıxdaş olunduqdan sonra Mərkəzi Seçki Komissiyasına təhvil verilməsi**

2.1. Mətni və forması baxımından Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi nümunəyə uyğun gəlməyən bülletenlər, protokollar və səsvermə vəsiqələri yararsız hesab edilir.

2.2. Bülletenlər, protokollar və səsvermə vəsiqələri hazırlandıqdan sonra poliqrafiya müəssisəsinin işçiləri hazırlanmış bülletenlər, protokollar və səsvermə vəsiqələri sırasından yararsız olanları seçib ayırır.

2.3. Yararsız hesab edilərək çıxdaş olmuş bülletenlər, protokollar və səsvermə vəsiqələri seçilib ayrılandan sonra, yerdə qalan yararlı bülletenlərin, protokolların və səsvermə vəsiqələrinin sayının tələb olunan saydan az olduğu aşkar edilərsə, onların sifariş edilən saya uyğunluğu təmin olunmalıdır. Bundan sonra, yararlı hesab edilən bülletenlər, protokollar və səsvermə vəsiqələri müvafiq seçki dairələri üzrə qruplaşdırılır.

2.4. Müəyyən edilmiş sayda yararlı bülletenlər, protokollar və səsvermə vəsiqələri hazırlandıqdan sonra, onlar poliqrafiya müəssisəsi

tərəfindən Mərkəzi Seçki Komissiyasının səlahiyyətli üzvünə təhvil verilir. Təhvilvermə barəsində müvafiq aktlar tərtib edilməlidir. Aktların mətni və forması bu *Təlimatın 1, 2 və 3 saylı əlavələrinə* uyğun olaraq tərtib olunur.

2.5. Bülletenlər, protokollar və səsvermə vəsiqələri sifarişə uyğun olaraq təhvil verildikdən sonra poliqrafiya müəssisəsi yararsız hesab edilən və artıq çap olunmuş bülletenləri, protokolları və səsvermə vəsiqələrini məhv edir. Bu barədə bütün iştirakçıların imzası qoyulmaqla akt tərtib olunur *(Təlimata 4, 4a və 4b saylı əlavələr).*

**3. Bülletenlər, protokollar və səsvermə vəsiqələrinin aşağı seçki komissiyalarına paylanmasının təşkili və onların təhvil alınıb-verilməsi**

3.1. Qanunun 86.6-cı, 87.8-ci və 87.12.2-ci maddələrinə əsasən Mərkəzi Seçki Komissiyası poliqrafiya müəssisəsindən aldıqdan sonra bülletenlərin səsvermə gününə azı 5 gün qalmış, protokolları seçki məntəqələrinin sayı nəzərə alınmaqla, səsvermə gününə azı 5 gün qalmış, səsvermə vəsiqələrini isə səsvermə gününə azı 30 gün qalmış paylanmasını təşkil edir.

3.2. Təhvilvermə dairə seçki komissiyası sədrinin və katibinin iştirakı ilə xüsusi aktlar tərtib edilməklə həyata keçirilir *(Təlimata 5, 6 və 7 saylı əlavələr).*

3.3. Hər bir məntəqə seçki komissiyasına dairə seçki komissiyaları tərəfindən verilən bülletenlərin sayı dairə seçki komissiyasının qərarı ilə müəyyənləşdirilir. Bu say bülletenlərin verildiyi günədək seçki

məntəqəsi üzrə seçicilər siyahısına daxil edilmiş seçicilərin sayının 90 faizindən az, 0,5 faizindən isə artıq ola bilməz.

3.4. Bülletenləri, protokolları və səsvermə vəsiqələrini təhvil aldıqdan sonra, dairə seçki komissiyası bülletenləri və protokolları səsvermə gününə ən geci 3 gün qalmış, səsvermə vəsiqələrini isə səsvermə gününə ən azı 10 gün qalmış məntəqə seçki komissiyalarına təhvil verir. Təhvilvermə zamanı xüsusi aktlar tərtib edilir *(Təlimata 8, 9 və 10 saylı əlavələr).*

3.5. Bülletenlər təhvil alındıqdan sonra məntəqə seçki komissiyalarında onlarla bağlı aşağıdakı hərəkətlər edilir:

3.5.1. bülletenlər sayılır və alınmış nəticə komissiyanın qərarı ilə təsdiq edilir. Verilməli olan və alınmış bülletenlərin sayı arasında uyğunsuzluq aşkar edilərsə, bu barədə dairə seçki komissiyası məlumatlandırılır;

3.5.2. hər bir bülletenin üz tərəfinin yuxarı sağ küncü komissiyanın möhürü ilə təsdiq edilir;

3.5.3. bülletenlərin, protokolların və səsvermə vəsiqələrinin yalnız seçki məntəqəsinin binasında, etibarlı qorunan yerdə saxlanılması təmin edilir.

## 5. Bülletenlər, protokollar və səsvermə vəsiqələrinin təhlükəsizliyinin təmin edilməsi

5.1. Bülletenlərin, protokolların və səsvermə vəsiqələrinin saxlanılması üçün poliqrafiya müəssisəsindən təhvil alınması anından dairə seçki komissiyalarına paylanmasınadək Mərkəzi Seçki Komissiyası, Mərkəzi Seçki Komissiyasından təhvil alınması anından

məntəqə seçki komissiyalarına paylanmasınadək dairə seçki komissiyasının sədri, dairə seçki komissiyasından təhvil alınması anından səsvermədən sonra Qanunun 89.8-ci maddəsində göstərilən bütün digər seçki sənədləri ilə birlikdə dairə seçki komissiyasına təhvil verilməsinədək məntəqə seçki komissiyasının sədri məsuliyyət daşıyır.

5.2. Bülletenlər, protokollar və səsvermə vəsiqələri müvafiq seçki komissiyalarına təhvil verildikdən sonra onların təyinatı üzrə çatdırılması zamanı bütün zəruri təhlükəsizlik tədbirləri təmin edilməlidir.

*Təlimata 1 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə hazırlanmış seçki bülletenlərinin poliqrafiya müəssisəsindən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına təhvil verilməsi haqqında**

**A K T**

____________________ "____" ________ 20__ il
*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 86.4 və 86.5-ci maddələrinin tələblərinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sifarişi ilə _______________________
*(poliqrafiya müəssisəsinin adı)*
tərəfindən hazırlanaraq muxtar respublika üzrə ______ seçki dairəsində qeydə alınmış ________________ __________ seçicilərin ümumi sayı
*(sözlə)* *(rəqəmlə)*
əsas götürülməklə və həmin saydan 3(üç) faiz ____________________
*(sözlə)*
______________ artıq olmaqla ____________ nömrədən __________
*(rəqəmlə)*
nömrəyədək, cəmi __________________ ___________ seçki bülleteni
*(sözlə)* *(rəqəmlə)*
Komissiyanın səlahiyyətli nümayəndəsinə təhvil verildi.

**Poliqrafiya müəssisəsinin səlahiyyətli nümayəndəsi** _________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** _________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** _________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 2 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə hazırlanmış dairə və məntəqə seçki komissiyalarının səsvermə protokollarının poliqrafiya müəssisəsindən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına təhvil verilməsi haqqında**

**A K T**

___________________ "____" ________ 20__ il

*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.7-ci maddəsinin tələblərinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sifarişi ilə______________________

*(poliqrafiya müəssisəsinin adı)*

tərəfindən hazırlanaraq, dairə seçki komissiyalarının nömrələnmiş 3 (üç) nüsxədən ibarət __________________ ____________________

*(sözlə)* *(rəqəmlə)*

səsvermə protokolu və bu protokolların hər bir dairə seçki komissiyasına 30 (otuz) nüsxə hesabı ilə cəmi ___________________

*(sözlə)*

______ nömrələnməmiş surəti, eləcə də məntəqə seçki komissiyalarının

*(rəqəmlə)*

həmin qaydada çap olunaraq nömrələnmiş cəmi _________ ________

*(sözlə)* *(rəqəmlə)*

səsvermə protokolu, həmçinin həmin protokolların hər bir məntəqə seçki komissiyasına 30 (otuz) nüsxə hesabı ilə cəmi ______________

*(sözlə)*

___________ədəd nömrələnməmiş surəti Mərkəzi Seçki Komissiyasına

*(rəqəmlə)*

təhvil verildi.

**Poliqrafiya müəssisəsinin səlahiyyətli nümayəndəsi** _________ ___________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** ____________ ____________________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** ____________ ____________________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** ____________ ____________________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 3 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə hazırlanmış səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin poliqrafiya müəssisəsindən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına təhvil verilməsi haqqında**

**A K T**

____________________ “____” ________ 20__ il

*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.12.1-ci maddəsinin tələblərinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sifarişi ilə _______________tərəfindən

*(poliqrafiya müəssisəsinin adı)*

hazırlanmış ______ nömrədən ______ nömrəyədək, cəmi __________

*(sözlə)*

________ səsvermə üçün qeydiyyatdan çıxma vəsiqəsi Komissiyanın

*(rəqəmlə)*

səlahiyyətli nümayəndəsinə təhvil verildi.

**Poliqrafiya müəssisəsinin səlahiyyətli nümayəndəsi** __________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** __________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** __________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 4 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üçün hazırlandıqdan sonra çıxdaş olunmuş və artıq çap edilmiş seçki bülletenlərinin məhv edilməsi haqqında**

**A K T**

____________________ "____" ________ 20__ il

*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 86.5-ci maddəsinin tələblərinə uyğun olaraq, ________________________

*(poliqrafiya müəssisəsinin adı)*

tərəfindən hazırlandıqdan sonra çıxdaş olunmuş _________ _______

*(sözlə)* *(rəqəmlə)*

nüsxə və artıq çap edilmiş ____________ ___________ nüsxə seçki

*(sözlə)* *(rəqəmlə)*

bülleteni aşağıda imza edən şəxslərin iştirakı ilə poliqrafiya müəssisəsində məhv edildi.

**Poliqrafiya müəssisəsinin səlahiyyətli nümayəndəsi** _________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** _________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** _________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** _________ __________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 4a saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üçün hazırlandıqdan sonra çıxdaş olunmuş və artıq çap edilmiş seçki komissiyalarının səsvermə protokollarının məhv edilməsi haqqında**

**A K T**

____________________ "____" ________ 20__ il

*( şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.7-ci maddəsinin tələblərinə uyğun olaraq, ____________________________

*(poliqrafiya müəssisəsinin adı)*

tərəfindən hazırlandıqdan sonra çıxdaş olunmuş ________ ________

*(sözlə)* *(rəqəmlə)*

nüsxə və artıq çap edilmiş ____________ ___________ nüsxə dairə

*(sözlə)* *(rəqəmlə)*

və məntəqə seçki komissiyalarının səsvermə protokolu aşağıda imza edən şəxslərin iştirakı ilə poliqrafiya müəssisəsində məhv edildi.

**Poliqrafiya müəssisəsinin səlahiyyətli nümayəndəsi** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** __________ ________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 4b saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üçün hazırlandıqdan sonra çıxdaş olunmuş və artıq çap edilmiş səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələrinin məhv edilməsi haqqında**

**A K T**

____________________ "____" ________ 20__ il
*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.12.1-ci maddəsinin tələblərinə uyğun olaraq, ________________________
*(poliqrafiya müəssisəsinin adı)*
tərəfindən hazırlandıqdan sonra çıxdaş olunmuş __________ ______
*(sözlə)* *(rəqəmlə)*
nüsxə və artıq çap edilmiş ________________ ___________ nüsxə
*(sözlə)* *(rəqəmlə)*
səsvermə üçün qeydiyyatdan çıxma vəsiqəsi aşağıda imza edən şəxslərin iştirakı ilə poliqrafiya müəssisəsində məhv edildi.

**Poliqrafiya müəssisəsinin səlahiyyətli nümayəndəsi** __________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** __________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** __________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** __________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 5 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə seçki bülletenlərinin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyasına verilməsi haqqında**

**AKT**

____________________ “____” ________ 20__ il

*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 86.6-cı maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən _____ saylı ____________________________ seçki dairəsinin dairə seçki

*(seçki dairəsinin adı)*

komissiyasına həmin seçki dairəsinin seçki məntəqələri üzrə seçici siyahılarındakı seçicilərin ümumi sayına uyğun olaraq ______________________ ______________ və həmin saydan 3 (üç) faiz

*(sözlə)* *(rəqəmlə)*

_____________________ _____________ artıq olmamaqla, ____________

*(sözlə)* *(rəqəmlə)*

nömrədən _____________ nömrəyədək, cəmi _______________________

*(sözlə)*

_____________ ədəd seçki bülleteni verildi.

*(rəqəmlə)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** _______ _______________________

*(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** _______ _______________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Dairə seçki komissiyasının sədri** _______ _______________________

*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** _______ _______________________

*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 6 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə seçki komissiyalarının səsvermə protokollarının Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyasına verilməsi haqqında**

**AKT**

____________________ “____” ________ 20__ il
*( şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.8-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən ___ saylı ____________ seçki dairəsinin
*(seçki dairəsinin adı)*
dairə seçki komissiyasına:

1) dairə seçki komissiyasının nömrələnmiş 3 (üç) nüsxədən ibarət 1 ədəd səsvermə protokolu, habelə bu protokolun nömrələnməmiş 30 (otuz) ədəd surəti;

2) seçki dairəsindəki seçki məntəqələri məntəqə seçki komissiyalarının __________-dən _________-dək nömrələnmiş 3 (üç) nüsxədən ibarət cəmi ________________________ _______________
*(sözlə)* *(rəqəmlə)*
ədəd səsvermə protokolu, həmçinin həmin protokolun hər bir komissiya üçün 30 (otuz) nüsxə hesabı ilə cəmi ___________________
*(sözlə)*
______________________ nömrələnmiş surəti verildi.
*(rəqəmlə)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi**
**M.Y.** _______ *(imza)* ___________________ *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** _______ *(imza)* ___________________ *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının sədri** _______ *(imza)* ___________________ *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi**
**M.Y.** _______ *(imza)* ___________________ *(inisialı və soyadı)*

*Təlimata 7 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi blanklarının Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyasına verilməsi haqqında**

**A K T**

____________________ "____" ________ 20__ il
*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.12.1-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən _____ saylı _________________ seçki
*(seçki dairəsinin adı)*
dairəsinin dairə seçki komissiyasına ___________________ nömrədən _______________ nömrəyədək, cəmi _______________ ___________
*(sözlə)* *( rəqəmlə)*
ədəd qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin blankı verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi** _______ ___________________
**M.Y** *(imza)* *(inisialı və soyadı)*

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü** _______ ___________________
*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının sədri** _______ ___________________
*(imza)* *(inisialı və soyadı)*

**Dairə seçki komissiyasının katibi** _______ ___________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y**

*Təlimata 8 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə seçki bülletenlərinin dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilməsi haqqında**

**A K T**

____________________ "____" ________ 20__ il
*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 86.6-cı maddəsinə uyğun olaraq ____ saylı ________________________ seçki
*(seçki dairəsinin adı)*
dairəsinin dairə seçki komissiyası tərəfindən həmin seçki dairəsinin ____ saylı seçki məntəqəsi üzrə seçici siyahısındakı seçicilərin ümumi sayına uyğun olaraq, həmin saydan 90 (doxsan) faizdən az, 0,5 faizdən artıq olmamaqla ______________ nömrədən ______________ nömrəyədək _________________ __________ nüsxə seçki bülleteni,
*(sözlə)* *(rəqəmlə)*
cəmi _____________________ _____________ ədəd seçki bülleteni
*(sözlə)* *(rəqəmlə)*
müvafiq məntəqə seçki komissiyasına verdi.

**Dairə seçki komissiyasının sədri** _______ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Məntəqə seçki komissiyasının sədri** _______ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** _______ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının üzvü** _______ ____________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 9 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə məntəqə seçki komissiyalarının səsvermə protokollarının dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilməsi haqqında**

**A K T**

____________________ “____” ________ 20__ il

*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat ________

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 87.8-cı maddəsinə uyğun olaraq ____saylı ___________________________ seçki
*(seçki dairəsinin adı)*
dairəsinin dairə seçki komissiyası tərəfindən həmin seçki dairəsinin ______ saylı seçki məntəqəsinin məntəqə seçki komissiyasına _______ nömrəli 3 (üç) nüsxədən ibarət 1 (bir) ədəd səsvermə protokolu, habelə bu protokolun nömrələnməmiş 30 (otuz) ədəd surəti verildi.

**Dairə seçki komissiyasının sədri** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Məntəqə seçki komissiyasının sədri** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının üzvü** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

*Təlimata 10 saylı əlavə*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üzrə qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi blanklarının dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilməsi haqqında**

**A K T**

___________________ "____" ________ 20__ il
*(şəhər, rayon, qəsəbə, kənd)*

Saat _______

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.12.1-ci maddəsinə uyğun olaraq ____saylı ___________________________ seçki
*(seçki dairəsinin adı)*
dairəsinin dairə seçki komissiyası tərəfindən həmin seçki dairəsinin

____ saylı seçki məntəqəsinin məntəqə seçki komissiyasına __________ nömrədən ___________ nömrəyədək _________________
*(sözlə)*
________________ cəmi ___________________ ________________ ədəd
*(rəqəmlə)* *(sözlə)* *( rəqəmlə)*
qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin blankı verilmişdir.

**Dairə seçki komissiyasının sədri** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**

**Məntəqə seçki komissiyasının sədri** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının katibi** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**Məntəqə seçki komissiyasının üzvü** ________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

**M.Y.**